# “İlham Əliyev Cocuq Mərcanlı həsrətinə son qoydu”

## *Biləsuvardakı məcburi köçkün şəhərciklərində əsl bayram əhvali-ruhiyyəsi var*

Ötən ilin aprel ayında ermənilərin təxribatının qarşısının alınması zamanı Azərbaycan Ordusunun keçirdiyi hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpağımız işğaldan azad edildi. Füzuli-Cəbrayıl istiqamətində ordumuzun ən mühüm uğurlarından biri Cocuq Mərcanlı kəndinin yaxınlığındakı yüksəkliyin düşməndən tamamilə azad edilməsi oldu. Bununla da Cocuq Mərcanlı sakinlərinin öz doğma yurdlarına qayıtması üçün həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yarandı.



Prezident İlham Əliyev yanvarın 24-də “İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında” sərəncam imzalayıb. Sərəncamda deyildiyi kimi, ötən ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur.

Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında sərəncam ölkə ictimaiyyəti, xüsusən Cəbrayıl sakinləri tərəfindən böyük sevinc və rəğbətlə qarşılandı. Dövlət başçısına minnətdarlıq edən cəbrayıllılar bu sərəncamı işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın başlanğıcı kimi qiymətləndirirlər. Təbii ki, sərəncamdan daha çox sevinənlər Cocuq Mərcanlı sakinləridir. İlkin mərhələdə Cocuq Mərcanlıda 50 evin tikintisi nəzərdə tutulsa da, artıq 200-ə yaxın ailə öz kəndinə köçmək üçün Cəbrayıl Rayon İcra Hakimiyyətinə müraciət edib.

Hazırda Cocuq Mərcanlı kəndinin əhalisinin əksəriyyəti kompakt şəkildə Biləsuvar rayonu ərazisində salınmış məcburi köçkün qəsəbələrində məskunlaşıb. Burada 172 ailə, təxminən 635 nəfər Cocuq Mərcanlıdan olanlar yaşayır. Bu günlərdə Biləsuvar rayonuna səfərimizin də məqsədi Cocuq Mərcanlı sakinləri ilə görüşüb fikirlərini öyrənmək idi. Onlar Prezident İlham Əliyevə təşəkkürlərini ifadə edərək doğma kəndlərinə qayıdacaqları günü səbirsizliklə gözlədiklərini bildirdilər.

### Kəndə qayıdacağımız günü gözləyirik

Biləsuvardakı 9 saylı qəsəbənin sakini, kənd təsərrüfatı üzrə texniki nəzarət müfəttişi **Atakişi Atakişiyev** deyir ki, Biləsuvara 2007-ci ildə ailəsi ilə köçüb. Buna qədər çox əziyyət çəkiblər. Əvvəlcə Saatlıdakı çadır şəhərciyində məskunlaşıblar. Amma şəraitsizlik ucbatından yerlərini yenidən dəyişməli olublar və qonşuluqdakı kəndə yaxın yerə köçüblər. Sonra yenidən Saatlının Varxankənd kəndində məskunlaşıblar. Nəhayət, Biləsuvarda bu şəhərcik salınanda dövlət tərəfindən üçotaqlı evlə təmin olunublar.

*Ardı 5-ci səh.*



Biləsuvarda cəbrayıllı məcburi köçkünlər üçün salınmış qəsəbə



Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin mövcud durumu

# "İlham Əliyev Cocuq Mərcanlı həsrətinə son qoydu"

## Biləsuvardakı məcburi köçkün şəhərciklərində əsl bayram əhvali-ruhiyyəsi var



Zibeydə Mehbalıyeva



Savalan Xəlilov



Bağdat Mansırxanov



İlyas İbadov



Ələddin Həsənov



Atakişi Atakişiyev

*Əvvəli 1-ci səh.*

Onun sözlərinə görə, Prezident İlham Əliyevin sərəncamını televiziyadan eşidən gün bütün tanıdığı kənd sakinlərini muştuluqlayıb:

- Mən Prezident İlham Əliyevin Cocuq Mərcanlının yenidən qurulması barədə sərəncamını yüksək qiymətləndirirəm. Ona görə ki, artıq 24-cü ildir həsrətində olduğumuz yurdumuza qovuşacağıq. Yurda qayıdış Qarabağımıza qayıdış deməkdir. Yəni bununla məcburi köçkünlərin Qarabağa dönüşünün təməli qoyulur. Buna sevinməmək, kövrəlməmək mümkün deyil.

Yurd itkisi ən ağır dərddir. Biz bunu yaşadığımız üçün bilirik. Yaşamayanlar bu itkinin ağırlığını bizim qədər hiss edə bilməzlər. Dərdlərin böyüyü elə yurd itkisidir. Böyük dərdin əlacı da böyük sevinc doğurur. Ona görə bu günlərdə biz sevincliyik. 24 ildə üzümüz ilk dəfə indi ürəkdolusu gülməyə başlayıb.

"Allah Prezidentin canını sağ eləsin" - deyən Atakişi Atakişiyev onu da bildirdi ki, bu qərar bütün dünyaya mesajdır. Bu mesaj ondan ibarətdir ki, Azərbaycan işğal altındakı torpaqlarını azad edəcək. Qoy bunu düşmən də bilsin, onu dəstəkləyən dövlətlər də. Həm də bütün dünya görür ki, Azərbaycanın məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşları doğma yurda qayıdacaqları günü səbirsizliklə gözləyirlər. "Bu sərəncamla əlaqədar bizim də öhdəmizə nə düşürsə, onu yerinə yetirməyə hazırıq. Artıq ailəmiz adından müraciət etmişəm və böyük sevinclə Cocuq Mərcanlıya qayıdacağımız günü gözləyirik" - deyə o bildirdi.

İşinə gəlincə Atakişi Atakişiyev dedi ki, hazırda onlar ölkənin 53 rayonunda məskunlaşan və kənd təsərrüfatı ilə məşğul olan Cəbrayıl sakinlərinə xidmət göstərirlər. Bildirdi ki, Azərbaycanda harada yaşamasından asılı olmayaraq texniki nəzarət müfəttişi kimi işini davam etdirəcək: "Yolun uzaqlığının əhəmiyyəti yoxdur, təki Cocuq Mərcanlıda yaşayaq".

Cocuq Mərcanlı sakini, hazırda 9 saylı qəsəbədə məskunlaşan təqaüdçü **Bağdat Mansırxanov** deyir ki, Prezident İlham Əliyev bu sərəncamı ilə 24 ildir ürəklərində daşıdıqları dərd yükünü üzərlərindən götürüb:

- Bütün məcburi köçkünlərin doğma yurda qayıdış inamlarını daha da artıran bu sərəncam bir daha göstərdi ki, Prezident İlham Əliyev üçün ən prioritet məsələ torpaqlarımızın işğaldan azad edilməsidir. Bütün Cocuq Mərcanlı sakinləri Prezidentə minnətdardırlar. Ən böyük arzumuz təbii ki, məcburi köçkünlərin öz evlərinə qayıtmalarıdır. Ona görə Tanrıdan ən böyük diləyimiz onların da bizim kimi doğma yurda qayıdış sevincini yaşamalarıdır. İnanıram ki, onlar da gün gələcək, bizim kimi bu sevinc hissini yaşayacaqlar.







Bağdat Mansırxanovun sözlərinə görə, onlara Cocuq Mərcanlıda yeni evlər inşa ediləcək: "Prezident İlham Əliyev 2003-cü ildə burada bizimlə görüşəndə bəyan etdi ki, bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Cəmi 4 ildə bütün çadır şəhərcikləri ləğv olundu. Biz bir daha gördük ki, Prezident məcburi köçkünlərin ən böyük himayədarıdır. Bilirik ki, Cocuq Mərcanlının yenidən qurulmasının təşəbbüskarı da Prezident İlham Əliyevdir. Bu onu göstərir ki, İlham Əliyev doğma yurdumuza qayıdışımızı bizdən də çox arzulayır. Bax, budur Vətən sevgisi, budur dövlətə xidmət!"

"Prezident mənim həsrətimə son qoyur, torpağıma, yurduma, evimə qovuşdurur. Bundan gözəl nə ola bilər? Ona görə Prezident İlham Əliyevə minnətdarıq və bundan sonra da onun ətrafında sıx birləşəcəyik" - deyə Bağdat Mansırxanov bildirdi.

### Cocuq mərcanlılılar bir-birinə zəng edərək gözaydınlığı verirlər

22 il Cocuq Mərcanlının icra nümayəndəsi işləmiş, hazırda təqaüddə olan **İlyas İbadov** 8 saylı qəsəbədə məskunlaşıb. O deyir:

- 24 ildir biz yurd həsrətindəyik. Doğrudur, Cocuq Mərcanlı 1994-cü ilin yanvar ayında düşməndən azad edilib. O zaman ulu öndər Heydər Əliyevin sayəsində ordumuz Cəbrayılın sərhədinə qədər torpaqları azad etdi. Amma Cocuq Mərcanlıda yaşamaq çətin idi. Ermənilərin mülki vətəndaşlarımızı da atəşə tutduğu məlumdur. Ötən ilin aprelində Lələtəpənin azad edilməsindən sonra Cocuq Mərcanlı üçün təhlükə sovuşdu, indi rahatca öz kəndimizə gedib yaşaya bilərik. Sağ olsun Prezidentimiz ki, kəndimizin bərpası ilə bağlı sərəncam imzaladı.

İlyas İbadovun sözlərinə görə, bu xəbəri eşidər-eşitməz Azərbaycanın 17 rayon və şəhərində yaşayan Cocuq Mərcanlı sakinləri bir-birinə zəng edir, təbrikləşir, gözaydınlığı verirlər. Olmazın əziyyətlər görən bu adamların indi böyüklü-kiçikli hamısı hədsiz sevinc içərisindədir. Elə İlyas İbadovun ailəsi də Cocuq Mərcanlıya qayıtmaq üçün müraciət edənlər arasındadır və bu ilin payızında kəndə dönəcəkləri günü gözləyir.

Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Prezident İlham Əliyevin sərəncamını ürəkdən alqışlayan **Ələddin Həsənov** isə deyir ki, bu qərar işğal edilmiş torpaqlarımıza böyük qayıdışın ilk addımıdır. 8 saylı qəsəbədə yaşayan Ələddin Həsənovun sözlərinə görə, Qarabağa qayıdışın Cocuq Mərcanlıdan başlaması onlar üçün ikiqat sevincdir:

- Cocuq Mərcanlının adını Cəbrayılın işğalda olmayan yeganə kəndi kimi Azərbaycanda eşitməyən yox idi. Prezident İlham Əliyev isə bu sərəncamı ilə kəndimizə yeni həyat verdi. Mən arabir gedib o yerlərə baş çəkmişəm. Hər dəfə o dağılmış, uçulmuş evləri görəndə ürəyim ağrıyır, dözə bilmirəm. Amma indi xoşbəxtəm, hədsiz sevinirəm. Deyir, niyyətin hara, mənzilin ora. Keçən il Lələtəpə alınanda dedim ki, deyəsən, kəndə qayıdacağıq. Budur, niyyətimiz baş tutur və payızda artıq ilkin mərhələdə tikilən evlər hazır olacaq.

Biz köçkünçülüyün nə olduğunu yaxşı bilirik. Allah heç kimi torpağından, evindən ayrı salmasın. Bu 24 ili biz elimizdən kənarda yaşasaq da, indi sevinirik ki, övladlarımız, nəvə-nəticələrimiz öz doğma evlərində yaşayacaqlar. Buna görə də mən və ailəm Prezidentə minnətdarıq. Allah onun ömrünü uzun eləsin. Bilirik ki, cənab İlham Əliyev torpaqlarımızı azad etmək üçün gərgin iş görür. Biz bu yolda dövlət başçımıza uğurlar diləyirik.

### Bir daha əmin olduq ki, torpaqlarımız tezliklə azad ediləcək

Biləsuvarda 4 saylı qəsəbədə məskunlaşan keçmiş sürücü, hazırda təqaüddə olan **Savalan Xəlilovun** evində olduq. 2003-cü ildə qəsəbəyə köçən Savalan kişi burada özünə təsərrüfat yaradıb. Həyətində mal-qarası, xeyli toyuq-cücəsi var. Amma deyir ki, Cocuq Mərcanlıya qayıdanda özünə daha yaxşı güzəran quracaq:

- Ailəlikcə Prezidentimizə minnətdarıq, ömrü uzun olsun. Allah Heydər Əliyevə rəhmət eləsin. O vaxt Cocuq Mərcanlını ulu öndər Heydər Əliyev düşməndən aldı. İlham Əliyev isə bizi o torpağa qaytarır, evlərimizi bərpa edir. Biz ilk gündən Prezident İlham Əliyevin ətrafında sıx birləşmişik. Bu sərəncamdan sonra biz bir daha əmin olduq ki, işğal altında olan torpaqlarımız Prezidentimizin rəhbərliyi ilə nəyin bahasına olursa-olsun tezliklə azad ediləcək, bütün məcburi köçkünlər öz doğma yurdlarına qayıdacaqlar. Dövlətimiz sağ olsun, burada bizə ev verib. Biz də özümüzə normal güzəran yaratmışıq. Amma inanın ki, Cocuq Mərcanlıda bundan da yaxşı ev-eşik quracağam.

Savalan Xəlilovun 4 oğlu var. Biri Bakıda, o biriləri isə Biləsuvardakı 4 saylı qəsəbədə yaşayırlar. Övladları ailəlidir. Özü və övladları bu xəbəri eşidəndən sonra yır-yığışa başlayıblar. Biləsuvarda təsərrüfatları olsa da, olan qalan mal-heyvanı da götürüb kəndə qayıdacaqları günü gözləyirlər. Cocuq Mərcanlıda da maldarlıqla məşğul olacaqlar.

"Doğma yurd başqadır. Şəraiti olsa da, olmasa da, öz doğma elində yaşamaq gözəl bir hissdir. Allah bütün ölənlərimizə rəhmət etsin, hamısı bu dünyadan nisgilli köçüblər. Allah nəsib eləsin, məcburi köçkünlər doğma yurda qayıtsın, bəlkə o zaman ölənlərimizin ruhu şad olar" - deyə Savalan kişi bildirir.

Söhbətə Savalan Xəlilovun həyat yoldaşı **Zibeydə Mehbalıyeva** da qoşulur, torpağın yerini heç nə verməz deyir:

- Allah-təala qismət etsin bütün köçkünlər öz torpağına qayıtsın. Biz də gedək Hacı Qaramana ziyarətimizi edək. Bu yaxınlarda getmişdik, evimizi gördüm, həyətimizdə bir daşın üstündə oturub ağladım...

Bala, vətən hər şeydir, Allah heç kimi vətənsiz qoymasın. Cocuq Mərcanlıya qayıdacağımız günü ürəkdən gözləyirik. İnanıram ki, bütün Qarabağımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil. Bunun üçün Prezidentimizə uzun ömür, möhkəm cansağlığı arzulayıram...

***Rəşad CƏFƏRLİ, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***